# TARİXİ ABİDƏLƏRİN YENİDƏN CANLANDIRILMASI

**Əliyev Fəqan Seyfəddin oğlu**- t.ü.e.d., professor, Ekologiya mühəndisliyi kafedrası, AzMİU, ie_academy@yahoo.com
**Ahad Mesrizadeh-** doktorant, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU

**Annotasiya.** İranın yerli mülkləri mühəndislik və memarlıq prinsiplərinin nəticəsidir. Keçmişdən miras qalan qiymətli və tarixi abidələrin istifadəsiz qalması, bələdiyyələr tərəfindən müəyyən abidələrin məhv edilməsi, həmçinin doğma memarlığımıza səthi yanaşmalar bəzi şəxslərin həmin abidələri almasına, yıxmasına, tikməsinə, satmasına səbəb olub. Nəticədə regionun koordinasiya olmamasından, şəhərlərin görüntüsündə anarxiya yaranmışdır. Burada tarixi binaların bərpası ilə yanaşı onların yeni istifadə yolları araşdırılır. Bu məqalə Təbriz şəhərinin tarixi binalarının bərpasından sonra onların yenidən canlandırılmalarının müsbət cəhətlərini aydınlaşdırmağa çalışır.
**Açar sözlər:** yenidən canlandırma, funksiyanın dəyişdirilməsi, yeni istifadəçi, mədəni perspektiv

# RESUSCITATION OF HISTORICAL MONUMENTS OVER AGAIN

**Aliyev Faqan Seyfaddin oglu -** professor, department of Ecological Engineering, AzUAC, ie_academy@yahoo.com
**Ahad Mesrizadeh –** PhD candidate, department of Architectural constructions and monuments restoration, AzUAC

**Abstract.** Iran's local properties are the result of engineering and architectural principles. The loss of valuable and historical monuments inherited from the past, destruction of certain monuments by municipalities, and superficial approaches to our native architecture have led some people to buy, destroy, build and sell these monuments. As a result, anarchy appeared in the image of the cities because of the lack of coordination of the region. Here, along with the restoration of historic buildings, their new use is investigated. This article tries to clarify the positive aspects of the revival of the historic buildings of Tabriz.
**Keywords:** historical monuments, resuscitation over again, change of function, new user, cultural perspective

Keçmiş memarlıq abidələrinin bərpası- mədəni perspektivin bərpası deməkdir. Hansı bir məkanı mədəni miras kimi yenidən canlandırmaq lazım gələrsə, bu zaman bina mədəni miras olaraq tanınmalıdır, lakin, “mədəniyyət”, “miras” və “Mədəniyyət mirası” anlayışlarını düzgün şəkildə başa düşməliyik. Qısa tərif şəklində desək, “mədəniyyət" hər bir sosial qrupu və ya cəmiyyəti müəyyən edən bütün emosional, intellektual və mənəvi xüsusiyyətlərin toplusudur. “Miras” keçmişdən irs qalmaq deməkdir, ümumiyyətlə keçmişlə əlaqələndiricidir. Tarixi abidənin "mədəni miras" dəyərini müəyyən edən amillərə onun bədii, tarixi, funksional və s. əlamətləri şamildir [1]. “Yenidən canlandırmaq və bərpa” sözü bərpa planlaşdırılmasında, yəni tikililərin və məkanların düzgün istifadə edilməsi, onların qorunması üçün ən yaxşı seçim kimi vurğulana bilər. Çünki, qaydalı, üsullu və uyğun dəyişikliklər mövcud abidənin qorunmasını həmişə müşayiət edəcək. Tarixi abidələrin qorunması və yenidən canlandırılması bu gün dünya səviyyəli elm halına gəlmişdir. Belə ki, “ICOMUS” (İnternational Council on Monuments and Sites- binaların və obyektlərin beynəlxalq şurası) bəzi nizamnamələrində, o cümlədən, 1966-cı il tarixli “Venesiya nizamnaməsi”, 1982-ci il tarixli “Florensiya nizamnaməsi” və 1981-ci il tarixli “Bura nizamnaməsi”ndə tarixi abidələrin mədəni qiymətləndirilməsi və qorunması məqsədi ilə kompilyasiya qeyd etmişdir və bura binaların bərpası və reabilitasiyası üçün təlimatlar və üsullar daxildir.

Qeyd etmək lazımdır ki, reabilitasiya bərpa kateqoriyalarından biri kimi, abidənin yeni istifadəsi üçün şərait yaratmaqdır. Reabilitasiya abidənin qoruma səviyyəsini yüksəldir və abidənin sağ qalmasını təmin edir. Başqa sözlə desək, reabilitasiya davamlı qorumanı təmin etmək üçün şərait yaradır [2]. Oxford Dictionari-də "reabilitasiya" sözü bərpa etmək məqsədilə, abidəni normal vəziyyətə və ya keçmişdəki tanınmış statusuna, ya da ona oxşar funksional halına gətirmək deməkdir. Başqa sözlə bir abidəni yenidən həyata qaytarmaq və ya bir şəhərin bir hissəsini keçmişinə qaytarmaq deməkdir. Ümumiyyətlə yeni istifadəçi ilə abidənin uyğunluğu olmalıdır. Əgər söhbət erroziyaya uğramış bir şəhərin toxumasından və ya bir binanın yenidən canlandırılmasından gedirsə, bu zaman əsas məqsəd forma, fəza və məkan tədbirlərindən kənarına çıxmaqdır. Bu prosesdə tarixi abidənin keçmişi, bu günü və gələcəyi arasında əlaqənin yaradılmasına çalışmaqdır. Həmişə, bu işdə tarixi abidənin maddi və mənəvi dəyərlərinin qorunması nəzərə alınmalıdır.

Bina və ya tarixi kompleksin modernləşdirilməsi, maddi baxımdan müasir və köhnə sabit dəyərlər arasında münasib dialoqun yaradılmasıdır. Belə ki, bina və ya tarixi kompleksin müxtəlif hissələrində qarşılıqlı əlaqə yarana bilər. Başqa sözlə desək, qəbul edilən tədbirlərin nəticəsi qısa müddətli və davamsız olmamalıdır. Modernləşdirmə, mənəvi baxımdan bu mənadadır ki, səmərəli və uyğun tədbirlər ilə mədəni irsimizi maddi və mədəni sərvətə çevirsin. Davamlı bərpanın prinsipləri hökm edir ki, abidənin gələcək istifadəçisi barəsində diqqətli düşünülsün. Davamlı və ardıcıl istifadəçinin təyin edilməsi, nəticədə dinamik qorunmaya səbəb ola bilər ki, bu da bir çox hallardan asılıdır. Aşağıda nəzərə alınmalı bəzi məsələlər verilmişdir.

1)İstifadəçi dəyişikliyinin layihələndirilməsində abidənin yeni istifadəçiliyə qarşı, onun memarlıq xüsusiyyətlərinə ciddi diqqət yetirilməlidir ki, abidənin möhkəmliyi və zəifliyi yeni istifadəçiliyə qarşı təyin edilə bilsin.

2)Əgər abidə mətn kontekstində olarsa, gərək ki, yeni istifadəçi, istifadəçi ehtiyacına görə qəbul edilsin və həmin fəaliyyətin davamlılığı üçün təhlükəsizliyin təmin edilməsi mümkün olsun.

3)Tarixi abidələrin istifadəçiliyinin dəyişdirilməsində müdaxilələr qlobal üsullara əsaslanmalıdır və ya bir sıra daxili təşkilatlar vasitəsilə universallığın prinsiplərinə və qəbul edilmiş qaydalara uyğun şəkildə həyata keçirilməlidir ki, fərdi təsirlərin qarşısı alına bilsin.

4)Tarixi dəyərlər, milli və mühüm hadisələr müəyyən bir abidədə baş vermişdirsə və kütləvi emosiyalara səbəb olmuşdursa, o zaman bu abidələr ciddi nəzərə alınmalıdır. Belə hallardada, abidə ümumiyyətlə xüsusi istifadəçi tələb edir. misal üçün iranın müxtəlif şəhərlərindəki, məşrutə evi "məşrutə inqilabı muzeyi", davidin evi "iran və yaxın şərqdəki ilk bərpa məktəbi".

5)Bir çox abidələr əsas istifadəçilər və yə ona yaxın istifadəçi ilə mühafizə edilə bilər. Belə hallarda abidələrin əsas istifadəçisini dəyişdirmək lazım deyil.

6)bir çox hallarda istifadəçini dəyişdirmək üçün müasirləşdirmə məcburidir, amma abidənin gələcəkdə reabilitasiyası və ya yenidən bərpa prinsipləri abidəyə yeni istifadəçi təyin edəndə nəzərə alınmalıdır.

7)Yeni istifadəçidə abidələrin funksional və emosional anlayışları nəzərə alınmalıdır.

8)Yeni istifadəçidə abidənin əsas elementlərində ən az fiziki müdaxilə baş tutmalıdır. Əks halda abidənin dəyərinə və xarakterinə zərər vurulacaqdır.

9)Yeni istifadəçinin qoruyucu rolu olmalıdır və abidənin əsas elementlərinə zərər vurmamalıdır.

10)Mədəni Miras Təşkilatının bütün sahələrində vəsaitin mövzusu çox mühümdür, lakin bunu nəzərə almalıyıq ki, yeni istifadəçi nə qədər abidənin əsas istifadəçiliyinə yaxın olarsa, bu zaman xərclərin külli miqdarda azalmasına səbəb olacaqdır.

**Mövcud anlayışlar hansı bir tarixi abidə də** tarixi xarabanın hal-hazırdakı statusunu tam və aktiv arxitektura kimi bərpa etmək olmaz. Çünki, belə dağılmış abidənin başlanğıc vəziyyətinin davamını, qorunmasını, bərpa və reabilitasiya prosesində davam ola bilməz, amma yuxarıda qeyd olunan məsələlərə gəldikdə, dağılmamış tarixi abidələr haqqında digər baxışlar əlavə edilmişdir, lakin tarixi abidələrin "Mədəniyyət Mirası" kimi müəyyənləşdirilməsi, mühafizə, bərpa və reabilitasiya edilməsi turizm və s. üçün bir sahə təmin edə bilər. Tarixi abidələrə istinad edərkən

nəzərə alına biləcək bir sıra anlayışlar, konsepsiyalar və dəyərlər vardır ki, onlara aşağıdakılar daxildir:

*__Orijinallıq:__ Tarixi abidələrin qiymətləndirilməsində əsas meyardır. Orijinallıq ilk növbədə əl dəyilməmiş deməkdir. Belə ki, abidə əvvəldə inşa edilmiş halda qalmışdır və ya zaman ərzində dəyişilmişdir.

***Antiquity və ya qədimilik:** Memarlıq əsərləri ümumiyyətlə bir ölkənin, daha doğrusu bəşəriyyətin ən əhəmiyyətli mədəni təzahürlərindən sayılır. Onlar texniki və bədii xüsusiyyətlərindən əlavə insanların məskənidir. Tarixi abidələr bizə öz nəsilləri haqqında bir sıra maraqlı bilik və məlumatları çatdırır. Buna görə, zaman keçdikcə tarixi bir aspektə sahib olurlar və bir sənəd olaraq, zaman ərzində bir mövzunun dəyişilməsini və təkamülünü əks etdirirlər. Bundan əlavə stabillik, dayanıqlıq kimi anlayışların birləşməsi və digər mənaları da daşıyırlar. Başqa sözlə desək, çox qədim bir zamana aid olan əsərin yaranmasından çox illər ötərsə, əsər tarixi dəyəri olan əsərə çevrilir.

***Unikallıq:** Bunu nəzərə alaq ki, hər bir tarixi abidə öz məkan və zamanının xüsusiyyətlərinə görə formalaşıb və zaman ərzində, bu xüsusiyyətlərə uyğunlaşdırılmış dəyişiklikləri qəbul etmişdir. Bu onu digər abidələrdən fərqləndirir. Bir sıra prinsiplərdəki oxşarlıqlara görə öz coğrafi bölgəsinin memarlıqları ilə və ya eyni zamanda ümumi arxitektura nümunələri ilə də oxşarlıqlar tapıla bilər. Eyni zamanda hər bir binanın onu özünə bənzər binalardan fərqləndirən özünə məxsus xüsusiyyətləri də ola bilər. Bu fərqlənmələr unikallığın dəyərini yaradır.

*__Nadir hallarda:__ Əslində, bir çox tarixi abidələr unikal xüsusiyyətlər ilə yaradılmışdır və yaradıcılarının düşüncələrini əks etdirirlər. Lakin zaman ərzində təbii erroziya, zəlzələ, daşqın, müharibə və s. kimi təbii hadisələrə görə zədələnmiş və ya dağılmışlar. Bu gün, belə abidələrin məhdud nümunələri ilə qarşılaşırıq. Hətta bəzi hallarda bu xüsusiyyətləri təmsil edən abidələrin yalnız bir nümunəsinə rast gəlirik ki, bu  və ya oxşar xüsusiyyətləri təmsil edir. Bu vəziyyətə gəldikdə, abidə “nadir hallarda” xüsusiyyətini tapır.

***Antropoloji hadisə**: Bu xüsusiyyət bina içində davam edən hadisələrdən əldə edilə bilən anlayışlara aiddir. Bu konsepsiyaları gözlə görüb, dərk etmək mümkündür və ya binada və onunla əlaqəli yerlərdə qalıqların təkrar oxunması ilə konsepsiyalar çıxarıla bilər. Bu insanların həyat tərzini, etiqadlarını və inanclarını göstərir.

***Estetika:** Bir memarlıq abidəsinin anlaşılması onun bədii effektlərindən, formalaşan elementlərindən və fəzalarından əldə edilə bilər. Həmçinin memarlıq abidəsinin məkanda necə yerləşdiyi, eləcədə görünüşü ətraf mühitə təsir göstərir və bu məsələ də abidənin estetikasında rol oynayır. Bunlar birlikdə memarlıq abidəsini fərqli bir prestijə, etibara və dəyərə sahib edir, lakin hansı bir abidə estetik kateqoriyasında nəzərə alına biləcək dəyər və məna daşıyırsa, o zamaz estetika kateqoriyasında araşdırıla bilər [3].

Keçmiş mövzularla əlaqədar deyə bilərik ki, abidənin fiziki və funksional aspektlərindən əlavə, zaman ərzində semantik aspektlər da abidəyə verilmiş ola bilər. Onda lazımdır ki, abidənin reabilitasiya və yeni funksiyasının müəyyənləşdirilməsində bu semantik aspektlə də rəsmiyyətə tanınsınlar. Çünki, bu mənalar zaman ərzində abidənin öz saytı ilə həmçinin digər binalar arasındakı nisbət və əlaqələrdən yaranmışdır və abidənin xarakterində mühüm rol oynayırlar. Burada bir sual yaranır ki, abidənin quruluşu ilə verilən yeni funksiya arasında necə əlaqə yaradıla bilər ki, reabilitasiya etmək abidənin dəyərini zəiflətməsin? Buna görə də bu haqda düzgun qərar verilməlidir.

***Mədəni mirasın şəhər sərmayesı kimi qorunması:** Hər bir şəhərin mədəni irsi yuxarıda müəyyən edilən anlayışlara görə həmin keçmişdən qalanlardır ki, uzun müddət ötəndən sonra maddi dəyərlərdən kənara çıxmışdır. Misal üçün: bir bina və ya hər hansı bir şey ki, bizi keçmişimizə bağlayır, maddi cəhətdən daha dəyərli sayılır. Bəzi hallarda hər hansı bir şəhər bir sıra hallarda mədəni arenalarda və ictimai qarşılıqlı əlaqələrdə, özünü sübut etməyə çalışır. Belə ki, miras qalmış tarixi abidələr, şəhərin tarixi, dəyərli və mədəni varlıqları kimi göstərilir. Beləliklə, bu mirasın qorunması, növbəti nəsil üçün xüsusi əhəmiyyətə malikdir.

***Şəhərin mədəni mənzərəsini yaxşılışdırmaq üçün reabilitasiya**: İstifadəsiz qalmış tarixi binalara yeni istifadəçinin verilməsi, reabilitasiya deməkdir. Reabilitasiya bir tərəfdən şəhərin mədəniyyət səviyyəsinin yüksəldilməsinə böyük töhfə verir, digər tərəfdən, yerli abidələrin düzgün qorunmasına gətirib çıxarır. Reabilitasiyada hansı bir abidəyə yeni istifadəçinin verilməsi və ya əvvəlki istifadəçinin verilməsi ilə, abidənin erroziyası dayandırılır. Həmçinin bu iş abidəni müasir nəsilə və turistlərə tanıtdırmağa səbəb olur.

Baxmayaraq ki, dünyada abidələrin yenidən canlandırılması sahəsində uzun bir tarixi və arxitektura təcrübəsi mövcuddür, eləcə də şəhər idarəçiyliyində də təcrübəli üsullar var, amma İranda bu sahədə ən mühüm tədbirlər son on 10-15 ildə baş vermişdir.

**Tarixi abidələrinin yenidən canlandırılmasının müxalifləri:** Tarixi abidələrin yenidən canlandırılmalarının möhkəm müxalifləri də vardır. Bu şəxslər belə düşünürlər ki, qiymətli abidələrin qorunması və mühafizəsi, dövlət orqanlarının vəzifələrindəndir və özəl sektorun girişi, bu sahəyə ziyan vura bilər. Bu fikir sahiblərinin narahatlığı məntiqli olsa da, lakin vurğulamalıyıq ki, dünyanın bir çox ölkələrində abidələrin yenidən canlandırılması yayılmaqdadır. Çünki, hökumətlərin maliyyələşdirilməsinə dair məhdudiyyətlər var, lakin özəl sektorları və bütün xalqı abidələrin qorumasınacəlb etmək, əslində daha yaxşı nəticə verə bilər. Bundan yaxşı nə ola bilər ki, abidələrin həqiqi sahiblərinə də bu işdə yer verilə. Belə ki, müqavilədə abidələrin qorunması üçün lazımlı standartlara cavab verən üsulların qeyd edilməsi və tələbi, müqavilədə binaların dəyərini nəzərə almaq və dövlət tərəfindən hər-bir neçə gündən yoxlamaların aparılması, qiymətli mirasın statusunun qoruyub saxlanılmasının ən yaxşı yollarından biri sayıla bilər.

Təbrizin tarixi evləri və hamamları, Azərbaycanın tarixindən və İranın parlaq memarlığından xəbər verir. Bu evlərin və hamamların sayı Təbrizdə daha çoxdur, o da bu şəhərin Qacar rejimindəki, imtiyazlı mövqeyindən irəli gəlir. Əlbəttə ki, fərqli tarixi dövrlərdə baş verən zəlzələlərə görə, xüsusən 1780-ci il zəlzələsində, erkən Qacar dövrünə aid olan dəhşətli zəlzələdə bu evlərin bir çoxu məhv olmuşdur. Qalan evlər və hamamların çoxu Qacar və Pəhləvi dövrlərinə aiddir. Keçmiş illərə aid bir neçə tarixi evlər və hamamlar, mədəni və bədii yerlərə çevrilmişdir. Təbriz şəhərinin bələdiyyəsi, Mədəniyyət Mirası Təşkilatı və bəzi dövlət qurumları tərəfindən bir sıra köhnə və tarixi evlər və hamamlar alınmışdır. Bu mülklər Mədəni Mirası Təşkilatı tərəfindən bərpa edildikdən sonra mədəni, bədii və ictimai yerlərə çevrilmişdir.

Şərqi Azərbaycanda 400-dən çox tarixi ev var. Bunlardan 100-ə yaxın ev milli əsərlər siyahısında yer alıb, bu evlərin əksəriyyəti Təbrizdədir. Təbrizin tarixi evlərinin qorunub-saxlaması üçün Şərqi Azərbaycanın Mədəniyyət Mirası Təşkilatı investisiyaların cəlb edilməsinə və bu abidələrə yeni istifadəçiləri müəyyən etməyə çalışır. Adaptiv və uyğun dəyişiklik abidələrin qorunub-saxlanması üçün ən vacib və təsirli üsullardan biridir və bu iş binaların dağılmasına mane olub onları ictimai yerlərə çevirməklə insanların səyahət edə bilməyi üçün məkan artırır və turizmin inkişafında da effektiv ola bilər. “Gənceizadeh”, “Behnam”, “Qədəki” və “Sədəqiyani” evləri uğurlu nümunələrdəndir ki, “memarlıq məktəbinə” çevrilmişdir [4].

Tarixi evlərin ənənəvi otellərə çevrilməsi, bu evlərin davamlı bərpası üçün mühüm meyarlardan sayılır. Buna görə də abidənin yenidən canlandırılması və davamlı qorunması üçün yeni bir istifadəçi növüdür. Tarixi evlərin şəraiti icazə verən surətdə yeni funksiya kimi təyin etmək olar. Tarixi evlər hər bir ölkənin eləcədə şəhərin memarlıq sərgisidir və yaxşı olar ki, bərpa və təmirdən sonra, müəyyən evlərə otel funksiyası verilsin. Hər hansı tarixi evin şəraiti otel istifadəsinə uyğun gələrsə, turistlərin, eləcə də müasir nəslin cəlb edilməsi üçün həmin şəhərin mədəniyyət, sənət və yaşayış tərzini əks etdirən, rahat və dinc bir atmosferi olan, həmçinin keçmişlə ünsiyyət yaradan ənənəvi bir otel funksiyasını vermək olar.

Təbrizdə Nemətzadənin tarixi evi, Təbrizdə ilk tarixi evlərdən biridir. Şərqi Azərbaycanın Mədəniyyət Mirası Təşkilatının niyyəti var idi ki, daha çox turist cəlb etmək üçün onu tarixi bir iqamətgaha dəyişsin. Nemətzadənin tarixi evi Cənubi Arteş prospektində yerləşir. Bu tarixi evin bərpası və yenidən canlandırılması haqda Mədəni Mirası Təşkilatı İdarəetmə direktoru tərəfindən, bu işi təbriz hote sahibləri ilə əlaqələndirməsi nəticəsində bu abidə ənənəvi lüks otel halına

gəlmişdir və 4 ulduzlu, 5 ulduzlu otellər kimi xüsusiyyətləri daşıyır. İnvestorların və insanların tarixi evlərin təmir və istismarına daxil olmaları, əlbəttə, Mədəni Mirası Təşkilatının qayda və qanunlarına hörmətlə yanaşmaqla bu memarlıq abidələrindən istifadə edərək onları qoruyub saxlayırlar. Bu abidələrdən ənənəvi restoran, muzey, otel və qonaq evi üçün istifadə edilə bilər.

Bir çox turistlər yerli evlərdə qalmağı beş ulduzlu mehmanxanada qalmaqdan üstün tuturlar. Çünki belə məkanlar turistlər üçün bir fürsət sayılır ki, İranın rituallar, ənənəvi mədəniyyəti və tarixi ilə tanış olsunlar. Əgər bu otellərin yanında ənənəvi sənətlər üçün də yerlər nəzərdə tutularsa xarici və daxili turistlərin cəlb edilməsində daha müsbət təsir göstərər və demək olar ki, turistlər daha razı qalar. Tarixi binaları muzeyə çevirmək də yaxşı bir hərəkət olar, baxmayaraq ki, ölkədə bir çox muzey var, amma yenədə bəzi hallarda muzey yaratmaqa ehtiyac görünür. İranda kimlərin ki, tarixi evləri ənənəvi mehmanxanaya, muzeyə və ya əl işləri məkanına çevirmək üçün layihələri var, bu zaman onlar Mədəni Mirası Təşkilatına müraciət etməklə, texniki mədəni mirasla bağlı məsləhətlər alırlar. Daha sonra onları banklara tanıtdırırlar ki, onlar ən az faizlə kredit alsınlar.

Təbrizdə 30-dan çox tarixi abidə bərpa edilməklə münasib istifadəçiyə verilmişdir, o cümlədən kuzəkunanının evi "Məşrutiyyət muzeyi", Amir Nezamın evi "Qacar muzeyi", Salmasının evi "Miqyas muzeyi, Sehhətinin evi "Məhərrəm muzeyi", Ələvinin evi "Dulusçuluq muzeyi" olaraq adlandırmaq olar. Həmçinin Behnamın, Qədəkinin və Gənceizadehnin evləri "Memarlıq məktəbi", Heydərzadəhnin evi "Turizm mərkəzi", Ordubadinin evi "Milli sənədlərin mərkəzi", Laleinin evi "Yəhya Zəka kitabxanası", Şərbət Oğlunun evi "İran araşdırmaları fondu", və Xətayinin evi ki, "sənətçilərin evi" kimi tanınmışdır. Həririnin, Seqətol İslam, Pərvine Etesami, Kompanı, Əli Musiyo, Kəlkətəçi və Sərxeinin evləri də Təbriz şəhərində bərpa olunun o tarixi evlərdəndirlər [5].

Təmizlik və çimməklə yanaşı, hamamlar mədəni qarşılıqlı əlaqələrə görə bir yer olmuşdur və bəzən şəhərin və ya bölgələrin rəhbərlərinin əhəmiyyətli qərarları burada baş tutmuşdur. Zaman keçdikcə və tikinti sənayesində irəliləyişlər bu binaların faydalılığının itirilməsinə və bəzən qəza halına gəlməsinə səbəb olmuşdur. İndi bu hamamların qorunması, onların əvvəlki istifadəçisi kimi istifadə edilməsi demək deyil amma, kiçik sosial və hətta bədii görüşlər və s. üçün bir yer kimi diqqət göstərilə bilər. Bu dəyərli binalar xüsusi memarlıq formaları ilə geniş imkanları olan qiymətli binalardır. Buna görə də onlara ictimai istifadəni tətbiq etmək olar. Mədəni güc baxımından bu abidələrin qorunması zəruri və əsaslıdır.

Nobər hamamı, Qacar dövründən yadigar qalmış bir bədii arxitektura nümunəsidir ki, xoşbəxtlikdən, təbii və tarixi hadisələrdən qorunmuşdur. Bu abidə Təbrizin görməli və məşhur abidələrdən biridir. Belə ki, həmin abidə həm turistlərin, həm də memarlıq tələbələrinin diqqətindədir. Bu hamam "Vəzir Hamamı" adı ilə də tanınır. Reabilitasiyadan sonra ilk "Ənənəvi Süfrəxana" (ənənəvi restoran) kimi Təbriz şəhərində işə başlamışdır. Kaşan şəhərində "Aqaların"tarixi evi 7 il bərpa işlərindən sonra, bir memar qadın tərəfindən yenidən canlandırıldı, İranın ənənəvi və doğma mehmanxanasına çevrildi. Aqaların tarixi evi Qacar dövrünə aid olub, Kaşan şəhərinin ticarətçilərindən birinə məxsus idi. Bu 250 illik tarixi ev Mədəniyyət Mirası Təşkilatının siyahısında siyahıya alınmışdır.

**Nəticə.** Bu məqalə Təbriz şəhərinin tarixi binalarının bərpasından sonra onların yenidən canlandırılmalarının müsbət cəhətlərini aydınlaşdırmağa çalışır. Hər bir şəhərin və ya bölgənin mədəni orijinallığı onun keçmişi və tarixi xüsusiyyətləri ilə xarakterizə olunur. Bu gün tariximizi qoruyub saxlamalıyıq ki, onlara istinad edə bilək. Təəssüf ki, bu gün və zaman ərzində acı bir şəkildə tarixi əsərlər unudulmuş və ya laqeyd yanaşmalar ilə üzbəüz qalmışdırlar. Memarlıqda bu qaydadan istisna olmayıb. Bir tərəfdən məsuliyyət daşıyan insanların az olması, digər tərəfdən ümumi bilik səviyyəsinin aşağı olması nəticəsində tarixi binaların əksəriyyəti eləcə də şəhərin tarixi toxunuşu dağıdılmış və ya pis bir vəziyyətdə tərk edilmişdirlər.

**Ədəbiyyat**
1.Həsən ali, Şəhram Tacik Tarixi binaların vətoxumalar bərpası və canlandırılması. Nəşr edən Cahan Cam Cəm, Birinci Nəşr 1388. 2010.
2.Habibi, Seyyed Mohsen, Məqsudi Məlihe.Şəhər bərpası. Nəşr edən Thran Universitet, 1388. 2010.
3.Mərdomi, Kərim, Məhəmməd Moradi, Asğər.Memarlıq təhsili sahəsində mədəni mirasın qiymətləndirmə tələbləri.1387. 2009.
4.Təbrizin Mədəni Miras Təşkilatının Veb səhifəsi.www.eachto.org
5.Təbrizin Turizm və Təbriz Bələdiyyəsinin Səyahət Təşkilatı Veb səhifələri. http//:tourism.təbriz.ir

**References**
1.Hesen ali, Shehram Tacik Tarixi binalarin ve toxumalar berpasi ve canlandirilmasi. Neshr eden Cahan Cam Cem, Birinci Neshr 1388. 2010.
2.Habibi, Seyyed Mohsen, Meqsudi Melihe. Sheher berpasi. Neshr eden Tehran Universitet, 1388. 2010.
3.Merdomi, Kerim, Mehemmed Moradi, Asğer.Memarliq tehsili sahesinde medeni mirasin qiymetlendirme telebleri.1387. 2009.
4.Tebrizin Medeni Miras Teshkilatinin Veb sehifesi.www.eachto.org
5.Tebrizin Turizm ve Tebriz Belediyyesinin Seyahet Teshkilati Veb sehifeleri. http//:tourism.tebriz.ir

Redaksiyaya daxil olma/Received 03.02.2019
Çapa qəbul olunma/Accepted for publication 03.03.2019